# PEŞƏ TƏHSİLİ VƏ REGİONAL İNKİŞAF: NAXÇIVAN TƏCRÜBƏSİ



**Zeynəb Allahyarlı,**
*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının*
*Peşə təhsili sektorunun aparıcı məsləhətçisi*
*e-mail: zeynab.allahyarli@nakhchivan.edu.gov.az*
*https://doi.org/10.30546/2706-7858.2026.1.208*

***Elm və texnologiyanın sürətli inkişafı sənaye müəssisələrində yüksəkixtisaslı kadr ehtiyacına tələbatı artırır. Əmək bazarının bu ehtiyacı peşə təhsilinin inkişafını hər gün daha da zəruri edir. Peşə təhsili yalnız müəyyən bir sahədə bilik və bacarıq qazandırmaqla kifayətlənmir, həm də əmək bazarının tələblərinə uyğun kadrlar hazırlamaq və iqtisadiyyatda davamlı inkişafı təmin etmək baxımından böyük əhəmiyyət kəsb edir.***

İnsanlar daima aid olduqları cəmiyyətdə hər hansı bir peşəyə sahib olaraq müəyyən status qazanmaq istəyirlər. Bu proses adətən təhsil vasitəsilə həyata keçirilə bilər. Ona görə də insanın müəyyən səviyyədə təhsilə sahib olması şərtdir. Çünki o, aldığı təhsil səviyyəsindən asılı olaraq təkcə özünə deyil, həm də ətrafına, cəmiyyətə fayda verə bilər.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" – deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir.

Azərbaycanda peşə təhsili fasiləsiz təhsil sisteminin pilləsi kimi cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən, ölkənin sosial-iqtisadi inkişafına təkan verən, həmçinin iqtisadiyyatın bütün sahələri üçün ixtisaslı kadr hazırlığını təmin edən prioritet fəaliyyət sahəsidir. Ölkəmizdə peşə təhsilinin inkişafı insan kapitalının formalaşmasına, gənclər arasında məşğulluğun təmin edilməsinə, əmək bazarında ixtisaslı kadr çatışmazlığının aradan qaldırılmasına töhfə verir.

Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi ilk dövrlərdə texniki-peşə təhsili sistemi sürətlə inkişaf etməyə başlamışdır. Həmin dövrdə çoxsaylı fabrik və zavodların fəaliyyəti müxtəlif peşə ixtisaslarına malik kadrlara ehtiyac yaradırdı. Məhz ona görə də Heydər Əliyev peşə təhsilinin inkişafını çox əhəmiyyətli hesab edərək hələ o dövrdə hər hansı bir iri müəssisənin istifadəyə verilməsindən əvvəl həmin müəssisə üçün ixtisaslı işçi qüvvəsi hazırlaya bilən texniki-peşə məktəbinin yaradılmasına önəm verirdi. Həmin dövrdə Azərbaycanın digər bölgələri ilə yanaşı, Naxçıvanda da peşə-ixtisas kadrları hazırlayan texniki-peşə məktəbləri

mövcud olmuşdur. Bu gün də Naxçıvanın iqtisadiyyatının və sosial inkişafının təməlində peşə təhsili sahəsində irəliləyişlər durur.

***Naxçıvan Muxtar Respublikası*** Azərbaycanın mühüm iqtisadi, mədəni və strateji əhəmiyyətə malik bölgələrindən biridir. Tarixən mühüm ticarət yollarının kəsişməsində yerləşən



Naxçıvan zəngin sənaye və kənd təsərrüfatı ənənələri ilə fərqlənmiş və bu xüsusiyyətləri ilə həm regionda, həm də ölkə daxilində xüsusi əhəmiyyət kəsb etmişdir. 1879-cu ildə Naxçıvanda xarratlıq və çilingərlik üzrə sənətkarlar hazırlayan 3 illik şəhər Peşə Məktəbi yaradılıb və burada 24 şagird təhsil almağa başlayıb. 1904-cü ildə Naxçıvan Peşə Məktəbində daha 43 tələbədən ibarət "bağban" ixtisasının hazırlığına başlanılıb. Həmin ildə Naxçıvanda ikisinifli 3 illik Rus-tatar Qadın Peşə Məktəbi təşkil edilmiş və burada qızlardan ibarət 44 nəfər əl işi sənətinə yiyələnməyə başlamışdır. Tarixin sonrakı dövrlərində də Naxçıvanda peşə təhsilli kadrlar hazırlayan məktəblər yaradılmış, kadr hazırlığı diqqətdə saxlanılmış, eyni zamanda ölkəmizin digər şəhərləri ilə yanaşı, Naxçıvanda da zavod və müəssisələr tikilib istifadəyə verilmişdir.

2024-cü ildən etibarən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrində təhsil sisteminin mühüm pilləsi olan peşə təhsilinin ölkə üzrə aparılan tədris prosesinə uyğunlaşdırılması, peşə təhsilinin təkmilləşdirilməsi, müasir standartlara uyğun qurulması həyata keçirilir, peşə təhsili və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması istiqamətində səmərəli işlər görülür.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli, 3910 nömrəli Sərəncamında peşə təhsilinin inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsinə dair layihə təkliflərinin hazırlanması və əmək bazarının tələblərinə uyğun peşə təhsilli gənclərin sayının artırılması nəzərdə tutulmuşdur. Dövlət proqramının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təklifləri əsasında "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 2024-cü il 7 may tarixli, 238-VI FR nömrəli Fərman imzalanıb. Fərmana əsasən, Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxsi və Naxçıvan Şəhər Peşə Liseyi birləşdirilərək onların bazasında "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzi" publik hüquqi şəxsi yaradılıb, Şərur və Ordubad Texniki-Peşə və Sürücülük məktəbləri isə "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Şərur Peşə Liseyi" və "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində Ordubad Peşə Liseyi" adlandırılaraq publik hüquqi şəxsə çevrilib. Bu müəssisələrdə müvafiq olaraq peşə təhsilinin ilk peşə təhsili, texniki-peşə təhsili və yüksək- texniki peşə təhsili səviyyələri üzrə təhsil vermək, həmçinin peşə təhsili ilə yanaşı, tam orta təhsil vermək hüququ əldə etmiş və peşə təhsili sahəsi üzrə məqsədlərin əlçatan, səriştələrin inkişafı və karyerayönlü fasiləsiz peşə təhsili və təlimini həyata keçirməyi əsas hədəf kimi müəyyən edərək milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən, geniş dünyagörüşünə malik təşəbbüsləri, eləcə də yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən müasir təfəkkürlü və rəqabətqabiliyyətli kadrlar hazırlamağı hədəf götürmüşdür.

Əsrimizdə informasiya texnologiyalarının inkişafı təhsil prosesinin mühüm tərkib hissəsi olaraq özünü göstərir. Peşə təhsili akademik biliklərdən daha ziyadə praktik bacarıqları inkişaf etdirir. Belə ki, bu təhsil formasında təhsilalanlar təhsil müddətində müəyyən sənət və ya bacarıq

öyrənirlər. Bu gün elmin və texnologiyanın fonunda sənayenin inkişafı paralel olaraq ixtisaslı kadrlara ehtiyacı artırır. Bu ehtiyacı qarşılamaq üçün müasir standartlara cavab verən peşə təhsili müəssisələrinin yaradılmasına çox ciddi ehtiyac duyulur.

**Qəbul planı və tələbə qəbulu**

Muxtar Respublikada 2024–2025-ci tədris ilindən ölkə üzrə aparılan tədrisə uyğunlaşdırılan peşə təhsili sahəsində mühüm addımlar atılıb. Belə ki, 2024–2025 və 2025–2026-cı tədris illərinin hər birində 27 adda ixtisas nəzərə alınmaqla 35 qrup üzrə 700 yerlik Qəbul Planı təsdiqlənib. 2024–2025-ci tədris ilinin tələbə qəbulu (462 nəfər 66%) ilə müqayisədə 2025–2026-cı tədris ili üzrə tələbə qəbulunda (562 nəfər 80%) 14% artım müşahidə olunub. Ötən tədris ilindən 203 tələbə təhsilini davam etdirməyə başlamış, yeni tədris ilindən isə 562 tələbə cəlb olunmaqla, 3 müəssisə üzrə ümumilikdə 765 tələbə təhsil almağa başlamışdır.

2025–2026-cı tədris ilində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində həm ümumi orta, həm də tam orta təhsil bazasında 1, 3 və 4 illik təhsil müddətinə malik tədris proqramlarına uyğun kadr hazırlığı aparılır.

2025–2026-cı tədris ilində ***Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində*** 16 ixtisasın tədrisinə başlanılmışdır ki, onlardan “kargüzar” və “bərbər” ixtisasları ümumi orta təhsil bazası üzrə (1 illik müddətinə ilk peşə), “əməliyyatçı-mühasib”, “sığorta işçisi”, “dayə”, “aşpaz”, “qənnadıçı, şirniyyatçı”, “bərbər-vizajist-manikürçü”, “mebel ustası” və “yolun və süni qurğuların cari təmiri və saxlanılması üzrə briqadir” ixtisasları tam orta təhsil bazası üzrə (1 illik müddətinə texniki-peşə), “dərzi”, “avtomobillərin təmiri, çilingəri – avtomobil sürücüsü”, “kombi və kondisioner ustası” ixtisasları ümumi orta təhsil bazası üzrə (3 illik müddətinə texniki-peşə, tam orta təhsil almaqla); “baytarlıq və heyvandarlıq işi”, “kənd təsərrüfatı və inşaat texnikasının (maşınlarının) istismarı” ixtisasları ümumi orta təhsil bazası üzrə (4 illik); “moda dizaynı” ixtisası tam orta təhsil bazası üzrə (3 illik müddətinə yüksək texniki-peşə təhsili səviyyəsi) aparılır.

***Şərur Peşə Liseyində*** 5 ixtisasın tədrisinə başlanılmışdır ki, onlardan “dərzi”, “bərbər-



vizajist-manikürçü” və “avtomobil diaqnostikası və təmiri ustası” ixtisasları tam orta təhsil bazası üzrə (1 illik müddətinə texniki-peşə); “genişprofilli traktorçu-maşinist, təmirçi-çilingər, avtomobil sürücüsü (BC kateqoriyası)” və “dəmiryol stansiyası və keçidi növbətçisi” ixtisasları ümumi orta təhsil bazası üzrə (3 illik müddətinə texniki-peşə, tam orta təhsil almaqla təhsil səviyyəsi) aparılır.

***Ordubad Peşə Liseyində*** 9 ixtisasın tədrisinə başlanılmışdır ki, onlardan “kargüzar” və “bərbər” ixtisasları ümumi orta təhsil bazası üzrə (1 illik müddətinə ilk peşə); “veb-dizayner və proqram



təminatçısı”, “aşpaz”, “qənnadıçı, şirniyyatçı”, “bərbər-vizajist-manikürçü” və “xalçaçı” ixtisasları tam orta təhsil bazası üzrə (1 illik müddətinə texniki-peşə); “rabitə avadanlıqlarının quraşdırıcısı” və “dəmiryol stansiyasının növbətçisi” ixtisasları ümumi orta təhsil bazası üzrə (3 illik müddətinə texniki-peşə tam orta təhsil almaqla təhsil səviyyəsi) aparılır.

**İşə qəbul prosesi**

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində atılan addımlar bununla kifayətlənməmiş, ölkə üzrə peşə təhsili sahəsində həyata

keçirilən mühüm tədbirlərin muxtar respublikada da təşkili diqqətdə saxlanılmışdır. 2024-cü ildən etibarən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinə işə qəbul prosesi ölkə üzrə mərkəzləşdirilmiş müsabiqə vasitəsilə həyata keçirilir. Belə ki, ümumtəhsil məktəblərinə müəllimlərin işə qəbulu üzrə keçirilən imtahanlarla yanaşı, peşə təhsili müəssisələrində vakant olan ümumtəhsil fənləri üzrə müəllimlərin işə qəbulu, eyni zamanda, direktor və direktor müavinlərinin, ixtisas fənn müəllimləri və istehsalat təlimi ustalarının işə qəbulu prosesi test və müsahibə mərhələsi olmaqla 2 mərhələdə aparılır. Həmçinin peşə təhsili müəssisələrində mövcud gənclərin çağırışaqədərki hazırlıq rəhbəri və psixoloq üzrə vakant vəzifələr muxtar respublikada ümumtəhsil məktəblərinə müvafiq vəzifələrə işə qəbul üzrə keçirilən imtahanlarda nəzərə alınır, həmin vəzifələrin elana çıxarılması təmin olunur. 2024–2025-ci tədris ili ərzində keçirilən işə qəbul imtahanlarında 1-i istehsalat təlim ustası, 3-ü direktor, 2-si gənclərin çağırışaqədərki hazırlıq rəhbəri, 10-u ümumtəhsil fənləri üzrə müddətsiz, 3-ü isə müddətli müqavilə əsasında olmaqla ümumilikdə 19 nəfər işə qəbul olunmuşdur. 2025–2026-cı tədris ilində isə 4 ümumtəhsil fənləri üzrə müəllim, 3 ixtisas fənn müəllimi, 3 istehsalat təlimi ustası olmaqla 10 nəfər müddətsiz müqavilə ilə işə qəbul olunmuşdur.

**Kadrların peşəkar bacarıqlarının artırılması**

Peşə təhsili müəssisələrində keyfiyyətli təhsil mühitinin yaradılması və yüksəkixtisaslı işçilərin hazırlanması üçün təhsilverənlərin bilik və bacarıqlarının artırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan 2024–2025-ci tədris ili ərzində kadrların peşəkar bacarıqlarının artırılması diqqətdə saxlanılmış, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan peşə təhsili müəssisələrinin əməkdaşlarının bilik və bacarıqlarının artırılması məqsədi ilə 17 yanvar 2025-ci il tarixdə Bakı şəhərində, 4-7 fevral 2025-ci il tarixlərində isə Naxçıvan şəhərində təlimlər təşkil olunmuşdur. Təlimlərə peşə təhsili müəssisələri üzrə 70 pedaqoji işçi cəlb olunmuşdur. Bununla yanaşı, tədris ili ərzində Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşkil etdiyi onlayn təlimlərdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının Peşə təhsili sektorunun əməkdaşları və peşə təhsili müəssisələrinin direktorlarının iştirakı təmin edilmişdir. Bununla yanaşı, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq çərçivəsində tələbata uyğun ehtiyacların öyrənilməsi və yeni inspeksiya mexanizmlərinin mənimsənilməsi məqsədi ilə Agentliyin əməkdaşları 2-5 mart 2026-cı il tarixlərində



muxtar respublikaya ezam olunublar. Ezam çərçivəsində martın 3-də Şərur Peşə Liseyində, martın 4-də Ordubad Peşə Liseyində, martın 2-də və 5-də Naxçıvan Dövlət Peşə Təhsil Mərkəzində tələbə qəbulu, müəllimlərin işə qəbulu, ştat cədvəlləri və tarifikasiyanın hazırlanması, dərs bölgüsü, dərs cədvəllərinin hazırlanması, nəzəri təlim və istehsalat təlimi jurnallarının yazılması, tələbə təqaüdlərinin verilməsi qaydası, peşə təhsili müəssisəsinin büdcəsinin idarə olunması və s. kimi mövzular müzakirə olunub, müəssisələrdəki sənədləşmə işlərinə baxış keçirilib. Eyni zamanda tələbələrin dərsə davamiyyəti və tədrisin keyfiyyəti ilə əlaqədar monitorinqlər aparılıb. Yekunda müəssisələrin kollektivi ilə görüş təşkil olunub, görüşdə qeyd olunan məsələlərlə bağlı çatışmazlıqların aradan qaldırılması istiqamətində təlim keçiririlib, aidiyyəti şəxslərə tövsiyələr verilib və təlim zamanı suallar cavablandırılıb.

**İstehsalat təcrübəsi**

Qeyd etdiyimiz kimi, peşə təhsili sistemində tələbələr həm nəzəri bilikləri, həm də praktiki

bacarıqları əldə edirlər. Bu təhsil növü, həm də iş həyatına inteqrasiya olunma müddətini qısaltmaq üçün nəzərdə tutulub. Peşə təhsilinin əsas məqsədi işəgötürənlərin tələblərinə uyğun gələn kadrların hazırlanması və işsizlik səviyyəsinin azaldılmasıdır. Qısa zaman müddətində kadrların hazırlanması prosesində ixtisas üzrə təhsilalanların bilik, bacarıq və vərdişlərini möhkəmləndirən, təkmilləşdirən praktiki fəaliyyət – istehsalat təcrübəsi mühüm əhəmiyyət kəsb edir. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinin tələbələrinin 2025-ci ilin aprel ayından etibarən istehsalat təcrübəsinə göndərilməsi diqqətdə saxlanılmış, aprel ayı ərzində 136, may ayından isə əlavə 49 olmaqla, ümumilikdə aprel-iyun ayları ərzində 185 tələbə istehsalat təcrübəsinə cəlb olunmuş, təcrübə keçirilən müəssisələrlə müqavilə bağlanmışdır.

**Maarifləndirici tədbirlər və "Açıq qapı" günlərinin təşkili**

Şagirdlərin peşə təhsilinə cəlbi və maarifləndirilməsi sahəsində Təhsil Nazirliyi tərəfindən müəyyən addımlar atılmışdır. Belə ki, 2025-ci ilin may-iyun ayları ərzində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən peşə təhsili müəssisələrinə şagirdlərin cəlbi məqsədi ilə peşə təhsili müəssisələri tərəfindən maarifləndirici tədbirlər və müəssisələrdə "Açıq qapı" günləri təşkil olunmuşdur. "Açıq qapı" günlərində şagirdlər müxtəlif ixtisaslar üzrə təlim dərslərində iştirak etmiş, müəssisələrin maddi-texniki bazası ilə yaxından tanış olmuşlar. Maarifləndirici tədbirlər isə Naxçıvan şəhərində və digər rayonlardakı ümumtəhsil məktəblərində keçirilmiş, 132 təhsil müəssisəsi üzrə ümumilikdə 2670 nəfər olmaqla



IX və XI sinif şagirdi iştirak etmişdir. Bununla yanaşı, muxtar respublika üzrə eksternat qaydasında imtahanda iştirak edərək uğur qazanan şəxslərin təhsil sənədi əldə etdikdən sonra peşə təhsilinə cəlbi məqsədi ilə peşə təhsili müəssisələri və təhsil şöbələrinin birgə təşkilatçılığı ilə 30 yanvar – 13 fevral 2026-cı il tarixlərində maarifləndirici görüşlərin təşkilində ümumilikdə 300-ə yaxın şəxsin iştirakı təmin olunmuşdur. Eyni zamanda peşə təhsilinin əhəmiyyəti, əmək bazarına inteqrasiyaya yaratdığı üstünlüklər barədə gənclərin maarifləndirilməsi istiqamətində qısamüddətli karyera təlimlərinin, treninqlərin təşkili məqsədi ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Təlim Mərkəzi publik hüquqi şəxsin təşkilatçılığı ilə 2026-cı ilin aprel-dekabr ayları ərzində 10 təlimin keçirilməsi nəzərdə tutulmuşdur.

Bütün bunlar onu göstərir ki, Dövlət Proqramına uyğun olaraq muxtar respublikada peşə təhsilinin əhatəsi genişləndirilir. Ümid edirik ki, təhsilimizin müasir standartlara cavab verən ümumtəhsil və ixtisas fənlərinin, eləcə də istehsalat təlimi ustalarının birgə fəaliyyəti nəticəsində verdikləri bilik və bacarıqları gənclərin həyatında mühüm rol oynayacaqdır.